**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunundan (Çıxarışlar)**

**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu**. 28 oktyabr 1999-cu il (28.12.2018-ci ilin dəyişiklikləri ilə).

**Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları**

**Maddə 15-10.1.** İcbari tibbi sığorta üzrə sığorta haqları aşağıdakı məbləğlərdə və dərəcələrdə müəyyən edilir:

**Maddə 15-10.1.4.** Energetik içkilərə (alkoqollu və alkoqolsuz) və elektron siqaret üçün mayeyə aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,1 manat;

**Maddə 15-10.1.5.** Tütün məmulatlarına aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,05 manat;

**Maddə 15-11. İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması**

**Maddə 15-11.14.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tütün məmulatlarına, alkoqollu içkilərə, energetik içkilərə (alkoqollu və alkoqolsuz) və elektron siqaret üçün mayeyə görə vergi ödəyicilərinə verilmiş aksiz markaları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.